“TƏSDİQ EDİRƏM”

Naxçıvan Dövlət Universitetinin rektoru:

E.S.İsayev

“30” yanvar 2024-cü il

# Naxçıvan Dövlət Universiteti Tələbə Elmi Cəmiyyəti haqqında

# ƏSASNAMƏ

## 1. Ümumi müddəalar

1.1. Tələbə Elmi Cəmiyyəti (bundan sonra TEC) elmi-tədqiqat və elmi-təşkilati işlərində fəal iştirak edən ali təhsil pilləsinin bakalavriat və magistratura, səviyyələrində, tibb təhsili sahəsində isə ali tibb təhsili müəssisələrində və rezidenturada təhsil alan tələbələrin könüllü ictimai təşkilatıdır.

1.2. TEC Naxçıvan Dövlət Universitetinin rektorluğuna tabedir və Naxçıvan Dövlət Universitetinin (bundan sonra-Universitet) Elmi Şurası qarşısında hesabat verir.

1.3. TEC öz fəaliyyətində elm və təhsil sahəsində müvafiq normativ-hüquqi aktları, "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununu, "Ali təhsil müəssisəsində təhsilalanların elmi tədqiqat işinin təşkili haqqında Əsasnamə"ni, Naxçıvan Dövlət Universitetinin Nizamnaməsini, Elm və Təhsil Nazirliyinin hazırladığı Nümunəvi Əsasnaməni rəhbər tutur.

## 2. TEC-in məqsəd və vəzifələri

2.1. TEC-in əsas məqsədi:

2.1.1. ali təhsilli mütəxəssislərin hazırlanma prosesində keyfiyyəti yüksəltmək, elmi-təşkilati tədbirlərin həyata keçirmək və elmi-texniki potensialın qoruyub artırmaqdır.

2.1.2. təhsilalanların elmi-tədqiqat fəaliyyətinin yeni sosial-iqtisadi şəraitə uyğunlaşdırılmasında Naxçıvan Dövlət Universitetinin işinə kömək etməkdən ibarətdir.

2.2. TEC-in vəzifələri aşağıdakılardır:

2.2.1. tələbələrin elmi-tədqiqat və yaradıcılıq fəaliyyətinə cəlb edilməsi və bu fəaliyyətin təşkil olunması;

2.2.2. elm, təhsil və təcrübənin vəhdəti prinsipinə əsaslanaraq tələbələr arasında elmi yaradıcılığın müxtəlif formalarının təbliğ edilməsi, həmin formalara və fundamental tədqiqatların aparılmasına gənclər və təhsillanların marağının artırılmasına köməklik göstərilməsi;

2.2.3. tələbələrdə tədqiqatçılıq fəaliyyətinə və elmi metodların öyrənilməsi üçün motivasiya edilməsi, təhsilalanların tədris materiallarının dərindən və yaradıcı şəkildə mənimsənilməsinə köməklik göstərilməsi;

2.2.4. tədqiqatçılıq fəaliyyətinin köməyi ilə tələbələrin yönəldiyi peşəyə innovativ münasibətin formalaşdırılması;

2.2.5. tələbələrə elmi-texniki, iqtisadi və incəsənət məsələlərin müstəqil həlli yollarının üsul və vasitələrinin öyrədilməsi;

2.2.6. istedadlı gənclərin məqsədyönlü şəkildə elmi tədqiqat və yaradıcılıq fəaliyyətində yüksək texnologiyaların mənimsənilməsinə cəlb edilməsi;

2.2.7. elmi və elmi-pedaqoji kadr planlamasında perspektivli təhsilalanların seçilməsi və onların tədqiqat fəaliyyətinə yönəldilməsi;

2.2.8. Azərbaycan və xarici ölkələrin ali təhsil müəssisələrinin TEC-ləri ilə əməkdaşlığın həyata keçirilməsi. tələbə elmi tədqiqat işinin təşkilinə dair mütərəqqi müasir forma və metodların tələbələrin elmi tədqiqat işinə (bundan sonra TETİ) tətbiq edilməsi;
2.2.9. təhsilalanların kurs, buraxılış, dissertasiya işlərinə baxış müsabiqələri, müxtəlif ixtisas və fənlər üzrə olimpiadalar, diskussiya klubları, simpoziumlar, elmi seminar və vebinar mühazirələrinin dinlənilməsi və s. tədbirlərin təşkili və keçirilməsində təhsilalanların iştirakının təmin edilməsi;
2.2.10. təhsilalanların elmi-tədqiqat işlərinin nəşrə hazırlanması;
2.2.11. innovasiya biznesi və sahibkarlıq vərdişlərinin formalaşması üçün tələbələrin innovasiya fəaliyyətinə cəlb edilməsinə köməklik göstərilməsi;
2.2.12. tələbələrin elmi mərkəzlər, texnoparkların ideya inkubatoru və s. müəssisələrdə aparılan işlərə (o cümlədən ödənişli) cəlb edilməsi;
2.2.13. regional və beynəlxalq elmi tədbirlər haqqında məlumatların toplanılması, yayılması və Universitein internet səhifəsində yerləşdirilməsinin təşkil edilməsi.

## 3. TEC-in strukturu

3.1. TEC-in strukturu, üzvlük qaydaları və ayrı-ayrı struktur vahidlərinin formalaşdırılması prinsipi, fəaliyyətinin konkret şərtləri "Ali təhsil müəssisəsində təhsilalanların elmi tədqiqat işinin təşkili haqqında Əsasnamə"yə, habelə Naxçıvan Dövlət Universitetinin Nizamnaməsinə uyğun olaraq müəyyən edilir.
3.2. TEC-in strukturuna aşağıdakılar daxildir:

- kafedra nəzdində fəaliyyət göstərən tələbə elmi dərnəkləri;
- elmi dərnəkləri profil üzrə birləşdirən gənc alimlər birliyi ;
- hər kursda təhsilalanların elmi işinə cavabdeh olan TEC-in kurs bölmələri;
- TEC-in fakültə bölmələri;
- TEC-in universitet daxilində fəaliyyət göstərən mərkəzlərin bölmələri.

3.3. Təhsilalanların və gənc alimlərin elmi fəaliyyətini birləşdirmək və əlaqələndirmək məqsədi ilə Naxçıvan Dövlət Universitetində yaradıcılıq birlikləri təşkil oluna bilər.

## 4. TEC-in işinin təşkili

4.1. Naxçıvan Dövlət Universitetinin TEC-nin ali orqanı TEC-in konfransıdır. TEC-in yaradılması və yenidən təşkili TEC konfransının qərarı əsasında həyata keçirilir. Konfranslararası müddətdə TEC-in fəaliyyətinə rəhbərlik konfransda seçilən TEC-in Şurası tərəfindən həyata keçirilir.
4.2. TEC-in konfransı ildə bir dəfə TEC-in iş planına uyğun olaraq çağırılır. TEC-in konfransı TEC-in üzvlərinin yarıdan çoxunun iştirak etdiyi halda səlahiyyətli hesab edilir. TEC-in Şurasının və ya TEC-in üzvlərinin 50 faizinin qərarı əsasında konfrans növbədənkənar çağırıla bilər.
4.3. TEC-in konfransının qərarları gizli və ya açıq səsvermə yolu ilə iştirakçıların səs çoxluğu ilə qəbul edilir.
4.4. Naxçıvan Dövlət Universiteti TEC-nin Əsasnaməsinin qəbul edilməsi, Əsasnaməyə dəyişikliklər və əlavələrin daxil edilməsi, TEC-in Şura üzvlərinin seçilməsi, TEC-in fəaliyyət planı və proqramlarının təsdiq edilməsi TEC-in konfransının müstəsna hüquqlarına aiddir.
4.5. TEC-in Şurası TEC-in idarə olunmasını həyata keçirən və seçkilərarası daimi fəaliyyət göstərən kollegial orqandır. TEC-in Şurası, tərkibinə 11/21 nəfər daxil olmaqla birillik müddətə seçilir və tələbələrin elmi-tədqiqat işinin təşkili ilə əlaqədar Naxçıvan Dövlət Universitetinin qarşısında duran məsələlərin yerinə yetirilməsini təşkil edir, səlahiyyətləri

çərçivəsində bütün işlərin gedişinə nəzarəti həyata keçirir, TEC-in işini planlaşdırır və əlaqələndirir. 1.1. TEC-in Şurasına təhsil, elmi tədqiqat və elmi təşkilati işlərdə aktiv fəaliyyəti ilə fərqlənən təhsilalanlar və professor-müəllimlər seçilir.

4.6. TEC-in Şurasının sədri Şuranın birinci iclasında onun üzvləri sırasından seçilir və ali təhsil müəssisəsinin TEC-nin fəaliyyətinə birillik rəhbərlik edir. TEC-in Şurasının sədri Naxçıvan Dövlət Universitetinin Elmi Şurasının tərkibinə daxil edilir.

4.7. TEC-in Şurasının sədri TEC-in Şurasının qərarlarının yerinə yetirilməsini təşkil edir və onlara nəzarəti həyata keçirir, Naxçıvan Dövlət Universitetinin Elmi Şurasının qarşısında cari tədris ilində TEC-in fəaliyyəti haqqında hesabatla çıxış edir və TEC-i digər müəssisələrdə etibarnaməsiz təmsil edir.

4.8. TEC-in Şurası tədris ilinin yekunlarına görə elmi tədqiqat işində yüksək nəticələr əldə etmiş tələbələrin rəğbətləndirilməsi barədə rektor qarşısında vəsatət qaldıra bilər.

4.9. TEC-in fəaliyyəti Naxçıvan Dövlət Universitetinin illik tədbirlər planı və özünün iş planı əsasında həyata keçirilir.

4.10. Tədris proqramlarına və elmi tədqiqat işlərinə qoyulan tələblərə cavab verən kurs, buraxılış işləri, eynizamanda TEC-in iş planına uyğun olaraq dərsdənkənar vaxtda yerinə yetirilən tələbə elmi tədqiqat işləri (məqalə, məruzə, tezis) müxtəlif müsabiqələrə və konfranslara təqdim oluna bilər.

4.11. Naxçıvan Dövlət Universitetinin Elmi Şurasının tapşırığına əsasən TEC-in və onun struktur bölmələrinin elmi fəaliyyətini professor-müəllim heyəti sırasından seçilmiş və rektorun əmri ilə təyin edilmiş TEC-in elmi rəhbəri əlaqələndirir.

4.12. TEC`in fəaliyyətinə təhsilalanların elmi rəhbəri və ya məsləhətçisi olan professor-müəllimlər və elmi işçilər cəlb edilir.

4.13. Naxçıvan Dövlət Universitetinin Elmi Şurasının tapşırığına əsasən TEC-in və onun struktur bölmələrinin elmi fəaliyyətini professor-müəllim heyəti sırasından seçilmiş və rektorun əmri ilə təyin edilmiş TEC-in elmi rəhbəri əlaqələndirir.

4.14. TEC-in üzvlərinin fəaliyyəti kafedra və fakültələrdə yaradılan TEC-in struktur bölmələrində professor`müəllim heyətinin tərkibindən seçilmiş elmi rəhbərin rəhbərliyi ilə həyata keçirilir.

4.15. TEC-in fəaliyyətinin nəticələri hər il TEC-in konfransında təhlil olunur və Naxçıvan Dövlət Universitetinin Elmi Şurasının iclasında müzakirə edilir.

4.16. TEC-in qarşısında duran məsələlərin vaxtında və yüksək səviyyədə yerinə yetirilməsinə TEC-in Şurasının sədri və elmi rəhbəri məsuliyyət daşıyırlar.

## 5. TEC-ə üzvlük qaydaları, TEC`in üzvlərinin hüquq və vəzifələri

5.1. Tədris planını müvəffəqiyyətlə yerinə yetirən və fəal elmi tədqiqat işi ilə məşğul olan tələbələr TEC-in üzvü ola bilərlər.

5.2. TEC-ə yeni üzvlərin qəbul edilməsi tələbələrin elmi işinə rəhbərlik edən bir professor-müəllimin (elmi dərnəyin və ya gənc alimlər birliyinin rəhbərinin) rəyi əsasında TEC-in Şurası tərəfindən həyata keçirilir.

5.3. TEC-in üzvlərinin hüquqları aşağıdakılardır:

- TEC tərəfindən keçirilən bütün tədbirlərdə iştirak etmək;
- TEC-in orqanlarının formalaşmasında, konfranslarının işində iştirak etmək;
- TEC-in və onun struktur bölmələrinin fəaliyyətinə dair rəy və təkliflərini bildirmək;
- TEC-in fəaliyyətinə dair informasiya əldə etmək;
- TEC-in Şurasına seçmək və seçilmək;
- yerli və beynəlxalq qrant proqramlarında iştirak etmək;
- TEC-ə üzvlüyünü öz xahişi ilə dayandırmaq.
- elmi tədqiqat işlərində fəal iştirak etmək

- star up layihə proqramlarında fəal iştirak etmək.

5.4. TEC-in üzvlərinin vəzifələri aşağıdakılardır:

- Naxçıvan Dövlət Universitetinin Nizamnaməsinin və " Naxçıvan Dövlət Universitetində təhsilalanların elmi tədqiqat işinin təşkili haqqında Əsasnamə"nin tələblərinə riayət etmək;
- elmi tədqiqat işinin aparılmasında və tədqiqat metodlarının öyrənilməsində fəallıq göst ərmək;
- TEC-in fəaliyyətində və keçirdiyi tədbirlərdə iştirak etmək;
- TEC-in rəhbər orqanları tərəfindən qəbul olunan qərarları yerinə yetirmək;
- Naxçıvan Dövlət Universitetinin nüfuzunu yüksəltmək.

### 6. TEC-in Universitetin digər struktur bölmələri ilə qarşılıqlı əlaqələri

6.1. Naxçıvan Dövlət Universitetinin TEC-i:

6.1.1. Elmi Şuranın elmi katibindən Elmi Şuranın iclaslarında müzakirəyə çıxarılacaq sənədlərin təqdimolunma tarixi haqqında məlumat alır;

6.1.2. Naxçıvan Dövlət Universitetinin Elmi fəaliyyətin təşkili və təhlili şöbəsindən həmin müəssisədə və digər təşkilatlarda keçiriləcək elmi tədbirlər haqqında məlumat, elmi tədbirlərin keçirilməsi və kargüzarlığın aparılmasına dair metodiki göstəriş və təlimatlar alır; Elmi fəaliyyətin təşkili və təhlili şöbəsinə TEC-in elmi işləri və tədbirlərinin illik tematik planını, habelə keçirilmiş tədbirlərin nəticələri haqqında hesabatı təqdim edir;

6.1.3. maliyyə xərcləri tələb olunan TEC-in illik tematik tədbirlər planını və ona uyğun xərclər smetasını Naxçıvan Dövlət Universitetinin Maliyyə şöbəsinə təqdim edir;

6.1.4. İnformasiya Texnologiyaları şöbəsindəndən elmi-informasiya proqramları haqqında məlumatlar alır; digər təşkilatlar tərəfindən keçirilən elmi tədbirlərdə və müsabiqələrdə TEC-in iştirakı haqqında məlumat təqdim edir;

6.1.5. TEC-in iş planı barədə Tələbə Şurasını məlumatlandırır; elm və təhsil məsələlərinə dair birgə ictimai aksiyalarda iştirak edir;

6.1.6. fakültə Elmi şuralarından və dekanlıqlardan elmi tədqiqat proqramlarında iştirak haqqında təklif, elmi tədbirlərin planlarını və TEC-in fəaliyyətinə dair qərarları əldə edir; Elmi fəaliyyətin təşkili və təhlili şöbəsinə TEC-in tədbirlər planını, mükafatlandırmaya təqdim olunan tələbələrin siyahısını, fakültə TEC üzvlərinin elmi işi haqqında hesabatı təqdim edir;

6.1.7. araşdırma mərkəzi, innovasiya labarotoriyası, kafedra və elmi tədqiqat laboratoriyalarından TEC-in elmi tədqiqat proqramlarında, elmi tədqiqat işlərinin planının formalaşdırılmasında iştirakına dair təkliflər alır; həmin strukturlara tələbə elmi dərnəklərin və gənc alimlər birliyinin iş planını təqdim edir;

6.1.8. Naxçıvan Dövlət Universitetindən kənar təşkilat və müəssisələrdən informasiya və metodiki materiallar əldə edir; öz fəaliyyəti haqqında informasiya və reklam xarakterli materialları təqdim edir.

### 7. TEC-in fəaliyyətinin maliyyələşdirilməsi və təhsilalanların elmi tədqiqat işinin maddi-texniki bazası

7.1. TEC-in fəaliyyəti ali təhsil müəssisəsinin Nizamnaməsinə uyğun olaraq müəyyən edilən müxtəlif büdcə və büdcədənkənar maliyyə mənbələrindən maliyyələşdirilir.

7.2. Elmi tədqiqat işlərində iştirak edən tələbələr Naxçıvan Dövlət Universitetinin kafedralarının, elmi tədqiqat institut, mərkəz və laboratoriyalarının avadanlıqlarından istifadə edirlər. Tələbə elmi tədqiqat və layihə-konstruktor işləri üçün tələb olunan lazımi

maliyyə xərcləri (avadanlıq, enerji, kimyəvi maddələr, materiallar və s.) ali təhsil müəssisəsinin büdcə və büdcədənkənar vəsaitləri hesabına ödənilir.

7.3. Tələbələrin elmi tədqiqat işlərinə ayrılmış vəsaitlərə nəzarət rektorluq tərəfindən həyata keçirilir.

7.4. Naxçıvan Dövlət Universiteti tələbələrin elmi fəaliyyətini stimullaşdırmaq məqsədi ilə tələbə elmi tədqiqat layihələrinin yerinə yetirilməsi üçün qrant müsabiqələri təşkil edə bilər. Müsabiqənin keçirilməsi və maliyyələşdirilməsi müvafiq əsasnamə ilə (Universitetin daxili imkanları, nazirlik tərəfindən ayrılmış vəsait və büdcədənkənar vəsait hesabına) tənzimlənir.

## 8. TEC-in kargüzarlığı

8.1. TEC-in kargüzarlıq fəaliyyətinə onun işinin məzmununa uyğun olan sənədləşmələrin aparılması daxildir. Bu sənədlər: müvafiq normativ-hüquqi aktlar, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin və Naxçıvan Dövlət Universitetinin rektorunun tələbə elmi işinə dair əmr və sərəncamları, Naxçıvan Dövlət Universitetinin TEC-nin Əsasnaməsi, TEC-in illik iş planı və hesabatı, TEC-in iclaslarının protokolları, tələbə elmi konfranslarının sənədləri və materialları ən yaxşı tələbə elmi tədqiqat işi, qrant və s. müsabiqələrin keçirilməsi haqqında sənədlər və fotoşəkillər (işlərin siyahısı, annotasiyalar, rəylər, qərar, mükafatlandırma və s.), TEC-in üzvləri haqqında məlumat bazası, respublika təşkilatları və digər ali təhsil müəssisələri ilə yazışmalar və s.

8.2. TEC-in kargüzarlıq sənədləri 10 il müddətində saxlanılır

8.3. TEC-in kargüzarlıq işini TEC-in şurasının müəyyən etdiyi bölmə yerinə yetirir.